KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (17) 2023

Lamiyə Əlizamin qızı Əliyeva
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Sənəd menecmenti kafedrasının magistrantı*
lamiyeliyev570@gmail.com

# QARS MÜQAVİLƏSİ İLƏ BAĞLI İLKİN ELEKTRON RESURSLAR

***Xülasə:*** *Azərbaycan dövlətçiliyinin inkişafında mühüm məqamlardan biri də Qars müqaviləsinin imzalanması olmuşdur. XX əsrin 20-ci illərinin beynəlxalq sənədi olan Qars sazişi ən çox tədqiq edilən mövzulardan birinə çevrilmiş və haqqında monoqrafiyalar, dövri mətbuat materialları ilə yanaşı, elektron resurslar meydana gəlmişdir. Elektron resursların araşdırılması nəticəsində mövzuya dair ilkin mənbələr ortaya çıxmışdır.*

***Açar sözlər:*** *Qars müqaviləsi, elektron resurslar, ilkin mənbələr.*

**Lamia Alizamin gizi Aliyeva**

## Primary electronic sources on the Kars agreement

***Abstract:*** *One of the important moments in the development of Azerbaijan statehood was the signing of the Kars Agreement. The Kars Agreement, an international document of the 20s of the 20th sentury, has become one of the most studied topics, and monographs, periodical press materials, and electronic resources have appeared about it. As a result of the examination of electronic resources, primary sources on the subject have emerged.*

***Key words:*** *Kars agreement, electronic resources, primary. sources.*

**Ламия Ализамин кызы Алиева**

## Первичные электронные источники по Карсскому соглашению

***Резюме:*** *Одним из важных моментов в развитии азербайджанской государственности стало подписание Карсского соглашения. Карсское соглашение, международный документ 20-х годов XX века, стало одной из наиболее изучаемых тем, о нем появились монографии, материалы периодической печати, электронные ресурсы. В результате изучения электронных ресурсов появились первоисточники по теме.*

***Ключевые слова:*** *Карский договор, электронные ресурсы, первоисточники.*

1921-ci il oktyabr ayının 13-də Cənubi Qafqaz Respublikaları (Azərbaycan, Gürcüstan, Ermənistan), Rusiya və Türkiyənin iştirakı ilə imzalanmış Qars müqaviləsi 101 illik tarixi əhatə etsə də, hələ də qüvvədə olan sənədidir. Bu müqavilə Türkiyənin Cənubi Qafqaz Respublikaları arasında ərazi-sərhəd problemlərinin müəyyən olunması, tərəflər arasında

dostluq münasibətlərinin gücləndirilməsi və Naxçıvanın ərazi taleyinin həlli baxımından mühüm əhəmiyyətə malikdir. 20 maddə və 3 əlavəni özündə əks etdirən tarixi müqavilənin imzalanmasında Türkiyə hökuməti adından Şərq cəbhəsinin komandiri Kazım Karabəkir paşa, Burdur Millət vəkili Vəli bəy, İctimai İşlər Katibliyinin keçmiş müavini Muxtar bəy; Azərbaycan hökuməti adından Xalq Dövlət Nəzarəti Komissarı Behbud Şahtaxtinski; Ermənistan hökuməti adından Xalq Xarici İşlər Komissarı Askanaz Mravyan, Xalq Daxili İşlər Komissarı Poqos Makinzyan; Gürcüstan hökuməti adından Xalq Hərbi-dəniz İşləri Komissarı Şalva Eliva, Xalq Maliyyə İşləri Komissarı Aleksandr Svanidze; Rusiya hökuməti adından Rusiyanın Latviyadı nümayəndəsi Yakov Qanetski iştirak etmişdilər.

Qars müqaviləsi Azərbaycanın dövlətçilik tarixində siyasi əhəmiyyətə malik müddətsiz müqavilədir. Bu müqavilə Cənubi Qafqaz Respublikaları ilə Türkiyə arasındakı münasibətləri bərqərar etdi.

Müqavilənin mühüm tərəflərindən biri də budur ki, Ermənistan Naxçıvanı Azərbaycan torpağı kimi qəbul etmişdir [1].

Müstəqillik illərində Qars müqaviləsi mövzusu mütəxəssislərin diqqətini cəlb etmiş və yeni informasiya resursları meydana gəlmişdir. Araşdırmalar göstərir ki, mövzuya dair İnternet resurslarının sayı üstünlük təşkil edir.

Qars müqaviləsinə dair informasiya resurslarını araşdırarkən elektron resurslar daha çox diqqət cəlb edir. Mövzu ilə bağlı onlayn axtarış apararkən açar sözlər düzgün seçilməli və informasiyanın məzmununa, keyfiyyətinə diqqət yetirilməlidir. Axtarış nəticəsində əldə olunan elektron resurslar daha səmərəli tədqiqat aparmağa xidmət edir. Çünki elektron resurslar zaman-məkan problemi olmadan tədqiqatçıların informasiyanı daha tez və asan əldə etməsinə imkan yaradır.

Qars müqaviləsi ilə bağlı onlayn axtarış nəticəsində Vikipediya və Vikimənbə kimi elektron resurslardan yararlanmaq olar. Elektron resurslara keçmədən öncə hər iki terminin fərqini aydınlaşdıraq. Vikipediya müxtəlif dillərdə olan məqalələri özündə əks etdirən və hər kəsə istifadə üçün açıq olan onlayn ensiklopediyadır. Vikimənbə isə Vikipediyaya nisbətən daha geniş xarakter daşıyır. Vikimənbə bütün oxucular üçün əlçatan olub, müxtəlif mövzular üzrə çoxdilli mətnlərin toplusundan ibarət rəqəmsal kitabxanadır.

Qars müqaviləsi ilə bağlı ilkin mənbə kimi müqavilə mətni əsas götürülür. Zaman keçdikcə müqaviləyə aid müxtəlif dillərdə də ənənəvi və elektron resurslar meydana gəlmişdir. Bu resurslar mövzu üzrə araşdırma aparan tədqiqatçıların sorğusunun ödənilməsində mühüm rol oynayır. İlkin elektron mənbə kimi "Qars müqaviləsi – Vikimənbə"dən istifadə etmək olar. Vikimənbədə Qars müqaviləsinin tam mətni Azərbaycan, türk, rus, fransız dillərində yerləşdirilmişdir. Müqavilə mətninin digər dillərdə olan tərcümələrinə baxmaq üçün şəkil 1-də göstərilən Dil bölməsinə daxil olmaq lazımdır.



KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal
№ 1 (17) 2023







Qars müqaviləsinə dair digər elektron ilkin mənbə http://virtualkarabakh.az saytıdır. Saytda Qars müqaviləsinin əsas mətni azərbaycan, türk, rus və ingilis dillərində yerləşdirilmişdir.

Qars müqaviləsi ilə bağlı digər mənbə Vikipediyadakı məqalələrdir. Bu məqalələr əsasən bir-birindən tərcümə olunmuş mətnlərdən ibarətdir ki, onların nə dərəcədə etibarlı və dəqiq olması məlum deyil. Bunun bir neçə səbəbi var: 1) Vikipediyaya məlumat daxil etmək üçün məcburi üzv öhdəliyinin olmaması; 2) Təhriflərə yol verilməsi.

Vikipediyada Qars müqaviləsi haqqında məqalələr 24 dildə (Azərbaycan, rus, ingilis, türk, fransız, ispan gürcü və s.) yerləşdirilmişdir. Azərbaycan dilində olan mənbədə Qars müqaviləsi haqqında ümumi məlumat, erməni narazılıqları və müqavilənin ləğv olunması üçün dərc olunmuş dövri mətbuat materialları ilə bağlı informasiya verilmişdir.

İngilis dilində "Kars agreement" olaraq yerləşdirilmiş Vikipediya mətnində isə Qars müqaviləsinin Türkiyə-İran münasibətlərinə təsiri, Naxçıvanın muxtariyyət statusunu qazanması, müqavilənin erməni daşnakları, həmçinin Sovet İttifaqı tərəfindən ləğv edilməsi cəhdləri barədə məlumat verilmişdir. Məqalənin "Aftermath of the 2015 Russian Sukhoi Su-24 shootdown" başlığı diqqəti cəlb edir. Məqalədə göstərilir ki, "2015-ci ilin noyabrında Suriya-Türkiyə sərhədində Rusiyanın Sukhoi Su-24 təyyarəsinin vurulmasından sonra Rusiya Kommunist Partiyasının üzvləri Moskva müqaviləsinin uzadılması və Qars müqaviləsinin ləğvini təklif ediblər. Rusiya Xarici İşlər Nazirliyi bu hərəkəti Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hökumətinə siyasi mesaj göndərmək üçün istifadə etmişdi. Bununla belə, Moskva Ankara ilə gərginliyi azaltmaq üçün son nəticədə bunun əleyhinə qərar verdi" [2].

Aparılan tədqiqatlar göstərir ki, Qars müqaviləsi ilə bağlı Azərbaycan dilində ilkin elektron resursların mövcud olması informasiya tələbatçısının axtarışının asanlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. *Hacıyev İ. Moskva və Qars beynəlxalq müqavilələri. – Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2021. – S. 81.*
2. https://en.wikipedia.org/wiki/TreatyofKars